АХМЕТ ЯСАУИ УНИВЕРСИТЕТІ

ABAI UNIVERSITY КАЗАХСКИЙ НАЦИОНАЛЬНЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ ИМЕНИ АБАЯ

ОШ МАМЛЕКЕТТИК УНИВЕРСИТЕТИ

# «TURKIY XALQLARNING MA'NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI» MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA

TOSHKENT - 2025

O‘ZBEKISTON RESPUBLIKASI OLIY TA’LIM, FAN VA INNOVATSIYALAR VAZIRLIGI

ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI

# «TURKIY XALQLARNING MA’NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI»

MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA MATERIALLARI

TOSHKENT - 2025

Mazkur ilmiy maqolalar to‘plamida «Turkiy xalqlarning ma’naviy integratsiyasi: tili, adabiyoti, madaniyati» II Xalqaro ilmiy-amaliy konferensiyasi materiallari jamlangan. Maqolalarda turkiy tillarning rivoji va o‘zaro o‘xshashliklarini, umumiy adabiy merosimizni ilmiy asosda chuqur o‘rganish; madaniy aloqalarni zamonaviy texnologiyalar orqali kengaytirish; tarjima va adabiy almashinuv orqali xalqaro miqyosda muloqotni kuchaytirish; raqamli platformalar orqali integratsiyani amalga oshirishga oid fikrlar yoritib berilgan. To‘plamdan dunyo bo‘yicha taniqli turkiyshunos olimlar, metodistlar, o‘qituvchilar hamda ToshDO‘TAU iqtidorli talabalarining maqolalari ham o‘rin olgan.

To‘plam til va adabiyot ta‘limi bilan shug‘ullanuvchi professor-o‘qituvchilar, shu sohaning tadqiqotchilari, magistrant va talabalarga mo‘ljallangan.

**Taqrizchilar:**

**G.Asilova** – *pedagogika fanlari doktori (DSc), professor.*

**G.Norimova** – *filologiya fanlari nomzodi, dotsent.*

**Tahrir hay’ati:**

S.Muhamedova, S.Qambarova, O.Turaqulova,
Y.Shirinova, M.Yo‘ldosheva.

*Mazkur to‘plam matni Alisher Navoiy nomidagi Toshkent davlat o‘zbek tili va adabiyoti universiteti Kengashining 2025-yil 2-iyundagi 10-sonli majlisida muhokama qilinib, nashrga tavsiya qilingan.*

*Izoh: Maqolalarning ilmiy saviyasi uchun mualliflar o‘zlari mas’uldirlar.*

# SƏMƏRQƏND ŞƏHƏRİNİN TARİXİ MEMARLIQ ABİDƏLƏRİ

**Əhmədova Səbirə Şövqi qızı**
*Filologiya fakültəsinin tələbəsi*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsi*
*ORCİD:orcid.org/0009-0005-3137-283X*
*ehmedovasebire06@gmail.com*
*Elmi rəhbər: f.e.d.,prof.Mirvari İsmayılova*

**Xülasə:** Səmərqənd şəhəri Özbəkistanın və dünyanın ən qədim şəhərlərindən biridir. Səmərqənd tarix boyu bir çox hökümdarlar tərəfindən fəth edilmiş və bir çox mədəniyyətlərə ev sahibliyi etmişdir . Şəhər14- cü əsrdəTeymurilər dövlətinin paytaxtı olmuş və iri mədəniyyət mərkəzinə çevrilmişdir. Burada türkün , Şərqin qədim və canlı tarixi yatır .Şəhərdə bir çox qədim tikililər, saraylar, məscid və mədrəsələr mövcuddur . Bu qədim tikililərin hər biri isə böyük bir tarixdir. Məqalədə Səmərqənd şəhərində yerləşən bir sıra abidələr , həmçini onların tarixi , haqlarında danışılan əfsanə və ravayətlər araşdırılır. Bu abidələrə misal olaraq " Gur- Əmir" məqbərəsini , "Şahi Zində" abidəsini , Registan meyadanını göstərmək olar . Abidələrin hər biri öz memarlığı və tarixi ilə ziyarətə gələnləri heyran edir . Bu abidələr nəyinki Səmərqənd , bütün türk dünyası üçün əsil memarlıq incisidir.

**Açar sözlər:** Qədim tarix, mədəniyyət mərkəzi, abidə, məqbərə, " Gur-əmir", memarlıq.

**Annotatsiya**: Samarqand Oʻzbekiston va dunyoning eng qadimiy shaharlaridan biridir. Samarqand tarix davomida koʻplab hukmdorlar tomonidan zabt etilgan va koʻplab madaniyatlarga mezbonlik qilgan. Shahar 14-asrda Temuriylar davlatining poytaxti boʻlib, yirik madaniyat markaziga aylandi. Turklar va Sharqning qadimiy va jonli tarixi shu yerda. Shaharda koʻplab qadimiy binolar, saroylar, masjidlar va madrasalar mavjud. Bu qadimiy binolarning har biri buyuk tarixdir. Maqolada Samarqand shahrida joylashgan bir qator obidalar, ularning tarixi, ular haqidagi rivoyat va ertaklar koʻrib chiqiladi. Bu yodgorliklarga "Gur-Amir" maqbarasi, "Shohi Zinda" yodgorligi, Registon maydonini misol qilib keltirish mumkin. Yodgorliklarning har biri oʻzining me'morchiligi va tarixi bilan tashrif buyuruvchilarni hayratda qoldiradi. Bu obidalar Samarqand va butun turk dunyosi uchun haqiqiy me'morchilik durdonasi hisoblanadi.

**Kalit soʻzlar:** Qadimgi tarix, madaniyat markazi, yodgorlik, maqbara, "Gʻur-amir", me'morchilik.

**Abstract :**The city of Samarkand is one of the oldest cities in Uzbekistan and the world. Samarkand has been conquered by many rulers throughout history and has been home to many cultures. The city became the capital of the Timurid state in the 14th century and became a major cultural center. Here lies the ancient and living history of the Turks and the East. There are many ancient buildings, palaces, mosques and madrasahs in the city. Each of these ancient buildings is a great history. The article examines a number of monuments located in the city of Samarkand, as well as their history, sisana and raiyats about them. Examples of these monuments are the "Gur Mir" mausoleum, "Shahi Zinda" monument, Registan square. Each of the monuments impresses the visitors with its architecture and history. These monuments are the original architectural gems of Samarkand and the entire Turkic world.

**Key words:** Ancient history, cultural center, monument, mausoleum, "Gur-emir". Architecture.

Özbəkistanın ən böyük şəhərlərindən biri Səmərqənd şəhəridir . Özbəkistanın cənubunda yerləşən bu tarixi şəhər Səmərqənd vilayətinin mərkəzidir. Bu möhtəşəm şəhərin tarixi isə çox qədimdir. Bir sıra mənbələrdə göstərilir ki, Ərdəbil , Gəncə , Qum , Mərv , Qəzvin , Daşkənd , Səmərqənd , Barçuk , Balaskun və digər bir sıra şəhərlərin əsasını Alp Ər Tonqa qoymuşdur .[9]

Şəhər Teymurilər dönəmindən qalma bir çox tarixi abidəylə bəzənmişdir . Müsəlman dünyasında ilk kağız karxanası Səmərqənddə tikilmiş , sonralar buradan Ərəb xilafəti və Avropaya yayılmışdır. 1220- ci ildə Çingiz xan tərəfindən dağıdılıb viran edildikdən sonra , Teymurləng tərəfindən paytaxt elan edilib .[11] Bu zamandan sonra şəhər yeridən inkişaf etmiş və iri mədəniyyət mərkəzinə çevrilmişdir. Şəhərdə bir çox qədim tikili , məscid , saray , məqbərə mövcuddur. Abidələr hər biri özlüyündə başdan – başa bir tarixdir .

*Gur Əmir məqbərəsi:* Əmir Teymur 1405- ci ildə Çinə yürüyüş zamanı vəfat edir. Ölümünün səbəbi dəqiq məlum olmasa da bir sıra mənbələrdə belə qeyd edilir ki , hökmdar öz ordusunu cəsarətləndirmək üçün buz kimi çaya girir və bir neçə gün sonra soyuqdəymədən vəfat edir. Hökmdarın cəsədi Xəlil Sultan tərəfindən Səmərqəndə gətirilir və nəvəsi Məhəmməd Sultanın yanında dəfn edilir. Belə göstərilir ki, Əmir Teymur nəvəsi Məhəmməd Sultanı çox sevir . Onun ölümündən sonra isə qəbiri üzərində məqbərə, məscid ucaldılmasını əmr edir . Beləliklə, "Gur Əmir" adlanılan bu məqbərədə demək olar ki , bütün Teymur xanədanının məzarları sıralanıb. Ortada Əmir Teymurun məzarı , ətrafında oğulları Miranşah və Şahrux , eləcə də nəvəsi Uluqbəy dəfn olunub . Məqbərədə 10- a qədər məzar var ki , bunlardan yalnız Teymurun qəbiri qara nefrit daşından yonulub . Digər məzarlar isə adi mərmərdəndir. [2]

Əmir Teymurun məzarı haqda ən çox yayılan əfsanə məzarın lənətli olmasıdır. Bələki bu əfsanənin tarixi 1941- ci ilə gedib çıxır . Belə ki , bu dövrdə tədqiqatçılar məzarı açaraq cəsədin həqiqətən də Əmirə məxsus olumasını yoxlamaq istiyirlər . [2] Bu zaman məzar üzərində belə bir yazı tapılır : "Kim mənim məzarımı pozarsa , başına böyük bir bəla gələcək" . Bundan sonra bir çox din xadimləri məzarın açılmasına qarşı çıxır. Lakin bütün bunlara baxmayaraq tədqiqatçılar məzarı açır . Məzarın açılmasından bir neçə gün sonra isə Almaniya SSRİ- yə hücum edir. Bir çox insanlar bu hadisəni məhz Teymurun məzarının lənətinin həyata keçməsi ilə əlaqələndirir. [4]

Bir digər əfsanəyə görə məqbərədə gizli bir otaq var və bu otaq yalnız Teymurun nəslindən olan bir şəxs tərəfindən açıla bilərdi.Otağın içində qədim xəzinələr, müqəddəs əşyalar və zamanın gücünü daşıyan simvolların olduğu deyilir. Sovet dövründə bu otaq tapılmağa çalışılsada, heç bir axtarış nəticə verməmişdir.

*Registan meydanı*: Registan meydanı Səmərqəndin ürəyi hesab olunur . Buranın əsası 15- ci əsrdə Uluqbəy tərəfindən qoyulmuşdur . Orta Asiya memarlığının nadir nümunələrindən olan bu meydanda 3 ayrı mədrəsə yerləşir. Qum ölkəsi mənasını verən bu meydanda Uluqbəy mədrəsəsi (XV əsr), Şirdor mədrəsəsi (XVII əsr) və Tilla-Kari mədrəsəsi (XVII əsr) yerləşir. [2] İlk

mədrəsənin qurulması ilə birlikdə bütün bayramlar, festivallar və Bazar günü bazarı burada qurulmağa və qeyd olunmağa başlamışdır. Mədrəsə İslam dininin ali məktəbləri sayılır. Uluqbəy mədrəsəsi 1417-1420-ci illər tarixlərində Uluqbəy tərəfindən qurulmuş və şəxsən özü burada, ölümünə qədər riyaziyyat və astronomiyadan dərs keçmişdir.

Uluqbəyin ölümündən 200 il sonra, Səmərqəndin hakimi olan Yalangtuş Bahadurın əmri ilə birinci mədrəsənin eynisi olaraq, ikinci bir mədrəsə inşa etdirilmiş və Şir-Dor mədrəsəsi adı verilmişdir.[6] Aralarındakı yeganə fərq yeni mədrəsədə artıq iki dənə qışda istifadə edilmək üçün hazırlanmış təhsil dəhlizi olmasıdır. Bunun xaricində baş quruluş birinci mədrəsə ilə eynidir. Bundan bir neçə il sonra təkrar üçüncü mədrəsə, Tilla-Kari tikdirilmişdir. Kənardan görünüşü digər iki mədrəsəyə oxşamaqla birlikdə bu mədrəsənin daxili quruluşu bir qədər fərqlidir. Mədrəsələr eyni plan əsasında inşa edilmişdir. Dörd künclü bir bağça, dörd eyvan və dairə boyunca sıralanmış otaqlar. Otaq qapıları İslam dinində mühüm bir xüsusiyyət olan hörmət və təvazökarlığı vurğulamaq üçün xüsusən alçaq düzəldilmişdir. Qapılardan girərkən və çıxarkən mütləq başın aşağıəyilməsi lazımdır.

*Şirlərin məskəni* :Şirdor və ya tərcümədə "Şirlərin məskəni" adlandırılan bu mədrəsə Uluqbəyin mədrəsəsindən sonra tikilib. Tikilişinə 1619-cu ildə başlanıb və 1636-cı ildə başa çatıb. Onun tikintisinə memar Əbdül Cabbar rəhbərlik edib. XX əsrin əvvəllərində restavrasiya işləri aparılıb və 1960-cı illərə qədər mədrəsənin bütün memarlıq ansamblı bərpa olunub. Mədrəsəyə ilk ayaq basdıqda ziyarətçilər güc rəmzi olan – kürəyində günəş daşıyan bəbir, svastika təsviri və "Allahu əkbər" yazısı ilə bəzədilən postlarla qarşılaşır. Divarlarda isə Quran ayələri, mozaika ilə işlənən bəzəklər, şir təsvirli kərpiclər, bəzən səmanın özündən də parlaq görünən günbəzlərin firuzəyi parlaqlığı hamını heyran edir.[3]

*Tilla – kari:* "Qızılla işlənən" mənasını verən Tilla-Karinin binası 1646-cı ildə Uluqbəyin dövründə qoyulub. Binanın əsas fasadı meydana baxır. Tikili ikimərtəbəli hücrə və künc qüllələri olan iki qanaddan ibarətdir. Həyət kvadrat formasındadır və hər tərəfdən qalereya və yaşayış sahəsilə əhatə olunub. Mədrəsənin "qızılla örtülmüş" adlandırılması heç də təsadüfi deyil. Həqiqətən də, burada divarlar və sərdabələr təkcə ənənəvi rəsm və mozaika naxışları ilə deyil, həm də bol zərlə bəzədilib. Vaxtilə mehrab adlanan minbər isə qızılla örtülüb.[3]

İri, mavi mozaikalarla bəzənmiş üç böyük bina. Divarlarında qızılı və tünd mavi rənglər bir-birinə qarışıb sanki ulduzlu bir səmanı xatırladır. Günəş şüası düşəndə, bütün mozaikalar parlaqlıqla işıldayır. [2]

Bu abidə haqdada bir sıra əfsanələr var . Əfsanəyə görə Registan meydanındakı mozaika və naxışların içində gizli dualar və qoruyucu sözlər yerləşdirilib.Bəzi inanclara görə, bu naxışlar o qədər ustalıqla düzülüb ki, baxan insanın gözünə görünməyən, lakin ruhuna təsir edən enerjilər buraxırmış.Xüsusən də gecə vaxtı meydanda dayanıb divarlara diqqətlə baxsan, bu "sözlərin nəfəsini" hiss edə bilərsən deyirlər.

Şahi Zinda: Şaxi Zinda kompleksinə 11-15-ci və 19-cu əsrlərə aid məqbərələr və dini tikililər daxildir. Şahi Zinda ("yaşayan kral") adı Qutam ibn Abbasın burada dəfn edilməsi ilə bağlı əfsanə ilə əlaqələndirilir. O, VII əsrdə, ərəb istilası dövründə Səmərqəndə İslamı təbliğ etmək üçün gəlmişdi. Məşhur əfsanələrdə inancına görə onun başının kəsildiyi, amma ölmədiyi, başını götürüb indi də yaşadığı dərin quyuya (Cənnət bağı) girdiyi söylənilir.[2]

Şahi Zinda kompleksi səkkiz əsr (11-19-cu əsrlər) boyu formalaşmışdır və hazırda iyirmidən çox tikilini ehtiva edir. Kompleks üç tikili qrupundan ibarətdir: yerli dildə çartak adlandırılan dörd tağlı günbəz keçidlərlə birləşdirilmiş alt, orta və yuxarı. Buradakı ən qədim tikililər 11-12-ci əsrlərə aiddir. İndi bu tikililərin əsasən özülləri qalmışdır. Tikililərin çox hissəsi 14-15-ci əsrlərə aiddir. 16-19-cu əsrlərdə kompleksdə aparılmış yenidənqurma işləri heç bir əhəmiyyət daşımamış və onun ümumi tərkib və görünüşünü dəyişdirməmişdir. [2]

Tikililərin yuxarı qrupu bir-birinə baxan üç məqbərədən ibarətdir. Onlar arasında ən erkən tikilmişi şimaldan keçidi tamamlayan Xoca-Əhməd məqbərəsidir . Sağda yerləşən, 1361-ci ildə tikilmiş məqbərə eyni keçidi şərqdən məhdudlaşdırır. [10]

Orta qrup XIV əsrin son rübü – XV əsrin birinci yarısına aid məqbərələrdən ibarətdir və Teymurun yaxınları olan hərbi və ruhani təbəqənin adları ilə əlaqələndirilir. Qərb tərəfdə Teymurun qardaşı qızı Şadi Mülk Ağanın məqbərəsi önə çıxır. Bu günbəzli məqbərə1372-ci ildə inşa edilmişdir. Qarşı tərəfdə Teymurun bacısı Şirin Bikə Ağanın məqbərəsi yerləşir.Şirin Bikə Ağa məqbərəsinin yanında XV əsrin birinci yarısına aid qeyri-adi bir məzar abidəsi olan "Sekizron" yerləşir. [10]

Şahi Zinda haqqında ən çox yayılan əfsanə "yaşayan şah" əfsanəsidir. Belə ki məqbərənin adının bağlı olduğu Qusam İbn Abbas burada öldürülür və dəfn edilir . Ancaq deyilir ki, o, əslində ölməyib – Allah ona "dirilik" verib və o, gizli bir yerə (yerin altına) çəkilərək oradakı bir quyuya düşüb. Həmin quyuda hələ də yaşadığına, dua edənlərin duasını eşitdiyinə inanılır.Bu səbəbdən də kompleksin adı "Şahi Zinda" – "Yaşayan Şah" adlandırı .

Bir digər əfsanədə göstərilir ki, Şahi Zinda kompleksində çox gizli bir yer var: qədim bir darvazanın arxasında, kimsənin asanlıqla tapa bilmədiyi bir kiçik hücrə. Bu hücrəyə yalnız gecə yarısı dua etmək istəyənlər girərdi.Əfsanəyə görə, burada dua edənlər ürəklərindəki ən böyük arzularının gerçəkləşdiyini görürdülər. Hətta deyirlər ki, 100 il əvvəl bir kasıb oğlan bu hücrəyə girib dua edib və ertəsi gün həyatında inanılmaz dəyişikliklər olub, böyük bir alim və zəngin insan kimi tarixə düşüb.

Bibi- xanım Məscidi : Orta əsr tarixçiləri qeyd edir ki, Bibi-xanım məscidi hündür minarələrinin üzərində bütün dünyaya meydan oxuyur. Əfsanəyə görə, Teymurun sevimli həyat yoldaşı Bibi – xanım bu məscidi öz hökümdarının növbəti yürüşdən qayıtması şərəfinə hədiyyə olaraq tikdirmək qərarına gəlir. Məscidin inşası üçün imperiyanın ən yaxşı memarı dəvət olunur. Hətta

Azərbaycan , Fars, Hindli memar, rəssam və nəqqaşlardan ibarət 100 qədər məşhur usta işə cəlb edilir. [2]

Məscidin inşası həqiqətən Teymur şah yürüşlərdə olarkən aparılırdı, ancaq tikinti əmrini o özü şəxsən, 1399-cu ildə, Hindistandan zəngin qənimətlə qayıtdıqdan sonra vermişdi, işin gedişatına həqiqətən şahın həyat yoldaşı nəzarət edirdi, amma onun adı Bibi- xanım yox , Sarayı – Mülk – xanım idi, gənc deyildi, əksinə, yaşlı qadın idi və məscidin özünü deyil, məscidin qarşısındakı mədrəsəni tikdirirdi. Məscidi tikmiş memar da 1 nəfər deyildi – Teymur şah bunun üçün nəhəng imperiyanın hər tərəfindən ən yaxşı sənətkarları işə cəlb etmişdi. [2]

Səmərqənd Bibi – xanım məscidi müsəlman aləmində ucaldılmış ən möhtəşəm tikililər sırasına daxildir. Müasir dövrümüzə dağılmış hələ də öz möhtəşəmliyi və dekorativ tərtibatının zənginliyi ilə heyrətamiz təsir bağışlayır.

Məscidin dekorativ tərtibatı rəngarəng və zəngindir. Burada mayolika, mozaika, üzlənmiş kərpic, qızıl və parlaq divar rəsimlərinə rast gəlmək olar. Nəbati və həndəsi ornamentlər, ərəb yazıları, iri pannolar şərq xalçası kimi məscidin divarlarını və fasadını örtmüşdür. Məscidin cənub – qərb hissəsində yarımçıq qalmış minarənin qalıqları ucalır. Minarənin üzərinə şirəli kərpicdən qurulmuş naxış spiralı örtür. [5]

Əfsanəyə görə, Əmir Teymur Hindistana yürüş etdikdə, sevimli xanımı Bibi -Xanım onun qayıdışına hədiyyə olsun deyə nəhəng bir məscid tikdirmək istəyir. Tikinti işləri zamanı məscidin baş memarı Bibi- Xanıma vurulur və deyir:"Əgər bir öpüş almasam, bu məscidi tikib başa çatdırmaram."

Bibi-Xanım istəməsə də, məscidin tikilməsini çox arzuladığı üçün razılaşır. Memar onun yanağından öpür və həmin öpüşün izi xanımın yanağında qalır.Teymur qayıdanda bunu görür və çox qəzəblənir. Memarı öldürtdürür, lakin Bibi Xanıma çox bağlı olduğu üçün onu bağışlayır. Məscid isə əbədi olaraq sevginin və qısqanc ehtirasın simvolu olaraq qalır.

*Uluqbəy rəsədxanası:* orta əsrlərin ən böyük rəsədxanalarından biri. Səmərqənd şəhəri yaxınlığında Uluqbəy tərəfindən tikilmişdir. Rəsədxananın inşa tarixi haqda bir sıra müqayisəli( 1420 ; 1428 ; 1429) fikirlər var .Uluqbəy rəsədxanasında tərtib edilən ulduz kataloqu uzun müddət dünyada ən mötəbər kataloq sayılmışdır. [2]

Uluqbəy təkcə bir hökmdar deyildi, həm də böyük astronom idi.Bir əfsanəyə görə, o, gecələr rəsədxanasının qülləsinə çıxar və ulduzlarla danışardı.İnanılırdı ki, Uluqbəyin özünə məxsus bir ulduzu var idi və o, hər dəfə çətin qərarlar verməli olduqda həmin ulduza baxaraq ilham alırdı. Maraqlısı budur ki, öz dövründə hesab etdiyi bəzi ulduz mövqelərimüasir dövr ölçmələri ilə də üst-üstə düşür.

XVI əsrin ortalarında rəsədxana sökülüb və bu unikal kompleksi qoruyub saxlamaq mümkün olmayıb. İndi muzeydə qədim rəsədxananın maketi, astronomik cədvəllərin fraqmentləri, sekstant və Uluqbəyin özünün həyat yolunu əks etdirən qədim freskalar var. Bura gəzinti və xüsusilə astronomiya, eləcə də ümumilikdə Özbəkistanın tarixi ilə tanış olmaq üçün əla məkandır. Bir

sözlə, bura Səmərqəndin tarixi ilə bağlı ən mühüm sirlərin qorunub saxlandığı yerdir. [9]

*Xoca Donyer (Daniyel) məqbərəsi:* Səmərqəndin ən məşhur ibadət yerlərindən biri olan bu məqbərəni dünyanın müxtəlif yerlərindən minlərlə zəvvar ziyarət edir. Xoca Donyer məqbərəsi isə Səmərqənd şəhərinin kənarında, Əfrasiyab təpəsinin şimal tərəfində, Siab çayının sahilindədir. [9]

Qədim Səmərqəndin çoxsaylı mavzoleyləri arasında Xoca Daniyarın məqbərəsi xüsusilə fərqlənir. Bu, müsəlmanların Xoca Daniyar, xristianların Daniil, yəhudilərin isə Daniel adlandırdığı məqbərədir. Daniyar peyğəmbərin nəşi burada dəfn edilib. Dünyada müsəlmanları, xristianları və yəhudiləri bir məkanda birləşdirən tək-tək ziyarətgahlardandır. Xristianlıqda Daniil "Müqəddəs Peyğəmbər" sayılır. [7]

Daniyar peyğəmbərin nəşinin Səmərqəndə gətirilməsi ilə bağlı hekayətlər və əfsanələr çoxdur. Onların ən məşhuru Əmir Teymurun adı ilə bağlıdır.

Yürüşlərinin birində Əmir Teymur Kiçik Asiyaya gedir və Suz şəhərini mühasirəyə alır, lakin şəhəri məğlub edə bilmir, bu, böyük sərkərdəni çox təəccübləndirir. Belə ki, Əmir Teymur hücum etdiyi bütün şəhər və dövlətləri işğal edir, öz imperiyasına qatırdı. O zaman ağsaqqalalr ona deyir ki, Suzu Daniyar peyğəmbərin ruhu qoruyur. Bu zaman böyük sərkərdədə Səmərqəndə sülh və sabitlik gəlməsi üçün Xoca Daniyarın nəşinin bir hissəsini Səmərqənddə dəfn etmək ideyası yaranır. Əmir Teymur Suzun hökmdarına xəbər göndərir ki, Daniyarın sağ əlini ona versə, şəhəri tərk edib gedəcək. Razılığa gəlirlər. Bundan xəbər tutan Suz ruhaniləri Xoca Daniyarın nəşinin bir hissəsinin Səmərqəndə aparılmasına razı olmurlar. Onlar bildirirlər ki, Səmərqəndə gedib Daniyarın sağ əlini yenidən öz yerinə qaytaracaqlar. [7]

Əmir Teymurun ordusu və Daniyarın sağ əlinin yükləndiyi at Səmərqənd yaxınlığında, Siab çayının sahilində qəflətən durur, sonra at ayağı ilə yerə vurur və oradan suyu müalicəvi olan bulaq axmağa başlayır. Əmir Teymur göstəriş verir, bulağın yaxınlığında, təpənin üstündə 18 metr uzunluğunda qəbir qazılır, Xoca Daniyarın sağ əli dəfn olunur. Daniyarın sağ əlinin qəbrin hansı tərəfində dəfn edildiyini isə bir adam bilirmiş, o da tezliklə vəfat edir. Qəbrin üstündə böyük məqbərə tikilir, yaxınlıqda məscid inşa edilir. Bu məkan elə o vaxtdan ziyarətgaha çevrilir [7]

Bu və bu kimi bir çox abidələr Səmərqənd , həmçinin Özbəkistan memarlığının nə qədər qədim və heyrətamiz olduğunun sübutudur . Özbəkistan müasir modern memarlıq abidələri ilə də zəngindir. Burada sözün həqiqi mənasında qədimliklə müasirlik bir vəhdət təşkil edir. Bu vəhdət isə günəşli Səmərqəndin daha da gözəlləşməsinə vəsilə olur. Səmərqənddə yerləşən bu tarixi abidələr şəhərin gözəlliyinə gözəllik qatmaqla birlikdə, onu dünyanın memarlıq incilərindən biri edir. Bu tarixi əsərlər özlüyündə Teymuri memarlığını, İslam motivlərini və türk ənənələrini birləşdirir.

**Ədəbiyyat**

1. "Mahmud Kaşğarlı." Beynəlxalq elmi jurnalı. II cild. Bakı. 2024

2.https://www.anl.az/down/meqale/525/2018/sentyabr/604260.htm
3.https://respublika-news.az/news/mocuzeler-seheri-semerqend
4.https://az.m.wikipedia.org/wiki/%C6%8Fmiri-Gur
5.https://az.m.wikipedia.org/wiki/Bibixan%C4%B1m_m%C9%99scidi
6.https://az.m.wikipedia.org/wiki/Registan_meydan%C4%B1_(S%C9%99m%C9%99rq%C9%99nd)
7.https://xalqqazeti.az/az/medeniyyet/132204-qedim-semerqendin-birlik-ziyaretgahi-xoca
8.https://az.m.wikipedia.org/wiki/Uluqb%C9%99y_r%C9%99s%C9%99dxanas%C4%B1
9.https://edebiyyatqazeti.az/news/sience/9128-alp-er-tonqa-turanin-qurucusu?utm_source=
10.https://az.m.wikipedia.org/wiki/%C5%9Eaxi_Zinda
11.https://az.m.wikipedia.org/wiki/S%C9%99m%C9%99rq%C9%99nd

## AZƏRBAYCAN MUĞAMI

**Fatimə Salmanova**
*Filologiya fakültəsinin tələbəsi*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Ordic: ordic.org/0009-0000-0906-464X*
*fiyamist6717@gmail.com*
*Elmi rəhbər: f.e.d.prof. Mirvari İsmayılova*

*Muğam bir xəzinədir, açarıdır duyğular,*
*Muğamda sevinc də var, muğamda kədər də var.*
*Muğam mənim xalqımın misilsiz kamalıdır,*
*Tarixidir, eşqidir, arzusu, amalıdır.*
***Bəxtiyar Vahabzadə***

**Xülasə**:Muğam sadəcə hansısa bəstəkar tərəfindən bəstələnmiş sadə bir musiqi və ya avaz deyil. Muğam insan ruhunu oxşayan, onun psixologiyasına müxtəlif istiqamətli təsirlər göstərə bilən unikal bir vasitədir.O, təkcə bir musiqi janrı deyil, həm də qədim tariximizi, ruhumuzu, duyğularımızı əks etdirən zəngin bir bədii irs nümunəsidir. Dünyada mövcud olan musiqi janrlarından fərqli olaraq, muğam bir çox xalqların milli-mədəni irsinin formalaşmasında və bugünkü dövrə qədər gəlib çatmasında mühüm rol oynayıb. Bu məqalədə muğam haqqında ümumi məlumat veriləcəkdir. Muğam nədir, necə yaranıb və hansı xüsusiyyətlərə malikdir — bütün bunlara aydınlıq gətiriləcək. Eyni zamanda muğamın bədii irs kimi xalq yaddaşındakı yeri və bu gün də yaşadılması mövzusuna toxunulacaqdır.

**Açar sözlər:** Azərbaycan mədəniyyəti, muğam,musiqi janrı, bədii irs, mədəniyyətin qorunması.

**Annotatsiya**: Mug'om shunchaki bastakor tomonidan yaratilgan oddiy musiqa yoki tovush emas. Mug'om – inson qalbiga chorlovchi, uning psixologiyasiga turli ta'sir ko'rsatadigan noyob vositadir. Bu nafaqat musiqiy janr, balki qadimiy tariximizni, qalbimizni, his-tuyg'ularimizni o'zida aks ettiruvchi boy badiiy meros namunasidir. Mug'om jahondagi boshqa musiqa janrlaridan farqli o'laroq, ko'plab xalqlar milliy-madaniy merosining shakllanishi va bugungi kungacha saqlanib qolishida muhim rol o'ynadi. Ushbu maqolada

| | |
|---|---|
| ***Zhumagali İBRAGİMOV.*** *KAZAK TÜRKÇESİNİN TÜRKİSTAN AĞZINDA EDATLAR* | 245 |
| ***Зульфия Ишкильдина, Светлана Косцова.*** *СЛОВООБРАЗОВАТЕЛЬНАЯ СТРУКТУРА СЛОВА В РУССКОМ И БАШКИРСКОМ ЯЗЫКАХ: СОПОСТАВИТЕЛЬНЫЙ АСПЕКТ* | 251 |
| ***Ahmedova Shaxnozaxon.*** *TOPONIMIKA FANI VA UNING RIVOJLANISH BOSQICHLARI* | 256 |
| ***Shirinova Yekaterina Turakulovna.*** *O'ZBEK VA RUS TILLARI MUROJAAT VOSITALARI TADQIQIGA DOIR* | 261 |
| ***Aynur Cəfərova.*** *QARAQALPAQ DİLİNDƏ KONSONATLARIN ( SAMİTLƏRİN ) İŞLƏNMƏSİ* | 267 |
| **IV SHU'BA. TURKIY XALQLARNING UMUMIY MADANIY MEROSI** | |
| ***Аминев Закирьян Галимьянович.*** *ОБ АРХАИЧЕСКИХ БАШКИРСКИХ ЭПОСАХ «УРАЛ БАТЫР» И «АКБУЗАТ»* | 275 |
| ***Турганбаев Нурмамат Орозович.*** *БАЙЫРКЫ ТАШ ЖАЗМА ЭСТЕЛИКТЕРДЕГИ ОРТОК СӨЗДӨР* | 278 |
| ***Адильбекова Эльмира Сейтимовна, Емре Гүлже.*** *TÜRK ANLATI GELENEĞİNDEKİ GÖLGE OYUNLARI: KARAGÖZ* | 286 |
| ***Turgay AKDURUŞ.*** *RENKLERİN SİYASİ VE TOPLUMSAL OLAYLARDA KULLANIMI* | 295 |
| ***Filiz GÜVEN, Zeynep AVCI.*** *İŞLEVSEL TİPTEN BELLEKSEL TEMSİLE: EMİR TİMUR'UN TÜRKİYE SAHASINDAKİ HALK ANLATILARINDA TİPOLOJİK DÖNÜŞÜMÜ* | 303 |
| ***Камалова Гульдар Рашитовна, Шакурова Шаура Рашитовна.*** *НАУЧНОЕ НАСЛЕДИЕ И ВКЛАД ВЫДАЮЩЕГОСЯ УЧЕНОГО-ТЮРКОЛОГА РАШИТА ШАКУРОВА В ГУМАНИТАРНУЮ НАУКУ* | 312 |
| ***Алиева Ляззат Бердуақасқызы, Ұлас Жанниет.*** *TÜRK MODERNLEŞMESİNİN TAŞIYICI GÜCÜ: HALK TİYATROSU* | 322 |
| ***Əhmədova Səbirə Şövqi qızı.*** *SƏMƏRQƏND ŞƏHƏRİNİN TARİXİ MEMARLIQ ABİDƏLƏRİ* | 328 |
| ***Fatimə Salmanova.*** *AZƏRBAYCAN MUĞAMI* | 334 |
| ***Sobirova E'zoza G'ayrat qizi.*** *TURKIY XALQLARNING MILLIY QADRIYATLARINI TALQIN ETISH* | 339 |
| ***Ayan Əlizadə.*** *QƏRBİ AZƏRBAYCAN BÖLGƏSİNİN ZƏNGİN MƏTBƏXİ* | 341 |
| ***Həsənova Ülkər Fikrət.*** *TARİX DƏRSLƏRİNDƏ AKMEOLOJİ SƏRİŞTƏNİN FORMALAŞDIRILMASINDA İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR* | 348 |
| ***Aysel Hüseyinova.*** *UŞA-QARABAĞIN MƏDƏNİ İNCİSİ* | 353 |
| ***Hüseynova Fatimə.*** *AZƏRBAYCAN VƏ ÖZBƏK XALÇALARI* | 359 |
| ***Zülfiqarova Aytən.*** *ÇÖVKƏN OYUNU* | 367 |
| ***Abbosova Mubina.*** *ZAHIRIDDIN MUHAMMAD BOBUR - TURKIY MADANIYAT TARG'IBOTCHISI* | 371 |